Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
Layihənin istiqaməti:
"İctimai və dövlət maraqları"

# Əfsanəyə çevrilən bəstəkar

## O, "mən xoşbəxt sənətkaram" deməyi haqq edirdi

**Ondan müsahibə almaq istəyən jurnalistləri "Mənim yaradıcılığıma bələdsinizmi?" sualı ilə sınağa çəkirdi. Əsərlərinin adını sadalayandan, bir qədər musiqi duyumuna malik olduğuna inandırandan sonra söhbətə razılıq verirdi. Bu baxımdan, jurnalistlərin görkəmli bəstəkar Arif Məlikovdan müsahibə almaq istəkləri nə qədər böyük olsa da, buna asanlıqla cəsarət etmirdilər.**

Yaradıcılığını xeyli araşdırandan sonra müsahibə almaq üçün yollandığım Musiqi Akademiyasındakı (Konservatoriya) görüşümüzdən xeyli illər keçib. "Bir amerikalı jurnalist məndən müsahibə almaq istəyir. Az qala bütün əsərlərimi araşdıraraq yazıb mənə göndərib"- deyə fərəhdən işıqlanan üzü gözümün qabağındadır. Bəstəkarın dünyaca məşhur "Məhəbbət əfsanəsi"nin paytaxtımızın Opera Teatrının səhnəsinə çıxa bilməməsi isə onun ömürlük nisgili idi. Ona görə, söhbətimiz daha çox giley üzərində quruldu. Böyük bəstəkar, yaradıcılığından, əsərlərinin dünya şöhrəti qazanmasından, eləcə də ölkə tamaşaçılarının məşhur baletin yalnız adını eşitmələrindən gileyləndi: "Niyə Mədəniyyət Nazirliyinə bu sualı vermirsiniz? Niyə soruşmursunuz ki, indiyə qədər dünya səhnələrini dolaşan "Məhəbbət əfsanəsi" doğma vətənimizdə səhnəyə çıxmayıb?" Sonra da "Bu münasibətlər məni yazıb-yaratmaq həvəsimdən çəkindirmir" - deyə əlavə etdi.

Keçən il - Arif Məlikovun 85 illik yubileyində yenidən evinə telefon açdım. "Yaxşı ki, xalqımız bu adətindən əl çəkməyib. Zəng edirlər, təbrik edirlər..."- deyə dəstəkdə səsinin titrədiyini hiss etdim. Müsahibəyə isə razılıq vermədi: "İndi xəstəyəm qızım, bir az möhlət ver..." dedi.

### SİMFONİYAÇI BƏSTƏKAR

Arif Məlikovun yaradıcılıq bioqrafiyası ömrünü bütünlüklə sevdiyi sənətə həsr edən bir insanın ömür yoludur. Sənət eşqi, musiqi uşaqlıqdan həvəsi olub. Bir ara rəssamlıq məktəbinə daxil olmaq istəsə də, musiqi sevgisi daha üstün gəlib.

1948-ci ildə A.Zeynallı adına Bakı Musiqi Texnikumunun tar sinfində oxuyarkən, onda bəstəkarlığa böyük həvəs yaranıb. 1953-cü ildə Konservatoriyanın bəstəkarlıq fakültəsinə daxil olub. Görkəmli bəstəkar Qara Qarayevin sinfində təhsil alması, onu təkcə gələcəyin istedadlı musiqiçisi kimi formalaşdırmır, həm də kamil şəxsiyyət kimi yetişdirir. A.Məlikov həmçinin 1960-cı ildən bu təhsil ocağında müəllim kimi çalışmağa başlayır. Gənc bəstəkarın hələ tələbəlik illərində yazdığı bir sıra iri həcmli əsərlər: simfonik orkestr üçün "Balet süitası", "Nağıl" faciəsi, fleyta və orkestr üçün "Konsertino" və I simfoniya ilk dəfə səsləndiyi gündən musiqi ictimaiyyətinin diqqətini cəlb edir.

Arif Məlikovun yaradıcılığı, təbiətinə görə simfoniyaçı idi. O, öz simfoniyaları ilə XX əsrin sonu XXI əsrin əvvəlində milli simfonik musiqimizin əsas inkişaf istiqamətlərini müəyyən edib. Bəstəkarın əsərləri onun yeni formalar axtarışını əks etdirməklə, müəllifin yaradıcılığının rəngarəngliyini nümayiş etdirib.

### MÜƏLLİMİ İLƏ FƏXR EDƏN TƏLƏBƏ

A.Məlikov unudulmaz müəllimi Qara Qarayevin tələbəsi olmasını həmişə qürurla xatırlayırdı: "Böyük şəxsiyyətlərin bir xüsusi özəlliyi də ondan ibarətdir ki, onların münasibəti, işi, əməli ilk növbədə vətəndaş tərbiyə edir. İnsan öz yanında ona dəstək verən, inam aşılayan şəxsiyyətləri görüb hiss edəndə daha güclü, daha vüqarlı olur, istedadını, bəxtin ona bəxş etdiyi dəyərləri cilalaya bilir. Mən o xoşbəxt insanlardanam ki, ilk gənclik illərimdən Qara Qarayev kimi görkəmli bəstəkarın tələbəsi olmuşam, Nazim Hikmət kimi dahi bir şəxsiyyətlə yaxın ünsiyyətdə olmuşam, maestro Niyazini yanımda hiss etmişəm".

Görkəmli türk şairi Nazim Hikmətin librettosu əsasında yazdığı ilk böyük əsəri - "Məhəbbət əfsanəsi" baleti Arif Məlikova dünya şöhrəti qazandırıb. Əsərin yaranmasının maraqlı tarixi var: 1959-cu ildə Q.Qarayevin məsləhəti ilə Leninqrad Opera və Balet Teatrı A.Məlikova N.Hikmətin "Məhəbbət əfsanəsi" pyesinə balet yazmağı təklif edir. 27 yaşlı bəstəkar N.Hikmət, baletmeyster Y.Qriqoroviç, rəssam Virsaladze və dirijor Niyazidən ibarət yaradıcı heyətlə birgə özünün şah əsərini yaradır. Premyeradan sonra əsər musiqi tarixində yeni söz və mərhələ kimi qiymətləndirilir. Leninqrad Akademik Opera və Balet Teatrının səhnəsindəki ilk tamaşadan dərhal sonra böyük rus bəstəkarı D.Şostakoviç yazırdı: "Arif Məlikov istedadlı bəstəkardır, onun musiqisi əsl peşəkar musiqidir. Partituranın dərin musiqi dramaturgiyası, onun daxili inkişafı, qəhrəmanların musiqi səciyyələrinin dəqiqliyi və ifadəliyi, orkestrovkada nadir ustalıq, onun xüsusi rəngarəngliyi, çoxlu tapıntılar bu gözəl musiqi əsərini böyük maraqla dinləməyi məcbur edir".



Böyük Teatrda "Məhəbbət əfsanəsi" baletinin tarixi bir tamaşası da keçirilib. Baleti təkcə Böyük Teatrın tamaşaçıları deyil, xüsusi layihə əsasında eyni vaxtda dünyanın mindən çox kinoteatrında internet və peyk yayımı vasitəsilə milyonlarla seyrçi izləyib. Bəstəkar xatırlayırdı: "Bir dəfə Böyük Teatrın truppasını Braziliyaya iki aylığa dəvət etmişdilər. Tamaşanı bütün xalq görmək istəyirdi. Ancaq teatrın imkanı buna yol vermirdi. Rəhbərlik əlacsız qalıb tamaşanı açıq havada göstərməli oldu. Ətraf dağların arasında səhnə düzəldilmişdi. Gömgöy yamaclar arasında. Təsəvvür edirsinizmi? Camaat yamyaşıl otların üstündə əyləşib tamaşanı izləyirdi. Belə mənzərə ilə mən Türkiyədə də qarşılaşmışam. Roma dönəminə aid antik teatrda on minlərlə tamaşaçı "Məhəbbət əfsanəsi"nə baxırdı. O qədim teatr qalıqları arasında vaxtilə imperatorların, kralların əyləşdiyi daşın üstündə oturduğum anlarda qürur hissi keçirirdim ki, Azərbaycan mədəniyyətinə, musiqimizə marağın miqyası belə geniş, belə möhtəşəmdir". Musiqişünaslar " Arif Məlikovun taleyinə yazılmış bir ömrün əfsanəsi yarım əsrdən çoxdur musiqisevərləri öz cazibəsində saxlamaqdadır" deyə qeyd edirlər.



A.Məlikov "Ölümdən güclü", "Yer üzündə iki nəfər", "Əlibaba və qırx quldur", "İki ürək dastanı", "Yusif və Züleyxa" baletlərinin, "Azərbaycan" balladasının, "Dalğalar" 3 hissəli operettasının və 8 simfoniyanın müəllifidir. Görkəmli bəstəkar, həmçinin 30-a yaxın Azərbaycan filminə musiqi bəstələyib. 2016-cı ildə bəstəkarın 28 cilddən ibarət "Not əsərlərinin tam külliyyatı" çap edilib. Bəstəkarın ümummilli lider Heydər Əliyevə ithaf etdiyi "Əbədiyyət" adlı 8-ci simfoniyası Azərbaycan musiqi mədəniyyətinin növbəti sənət zirvəsi sayılır.

Görkəmli bəstəkarın xalqımız tərəfindən böyük rəğbətlə qarşılanan, sevilən əsərləri eyni həyəcan və coşqu ilə dünyanın hər bir ölkəsində dinlənilir və səhnələşdirilir. Onun əsərləri dünyanın bir çox ölkələrində - Rusiya, ABŞ, Böyük Britaniya, Fransa, Yaponiya, Türkiyə, Braziliya, Avstriya, Norveç, Finlandiya, İtaliya, Misir, Tailand, Yuqoslaviya, Bolqarıstan, Rumıniya, Macarıstan, Çexiya, Slovakiya, Polşa, Almaniya, Özbəkistan, Qazaxıstan, Moldova, Ukrayna və Gürcüstanda ifa olunub və səhnələşdirilib.

"A.Məlikovun yaradıcılığı parlaq istedad və özünəməxsusluq ilə səciyyələnirdi. O, öz əsərlərində milli musiqi ənənələrini XX əsr musiqisinin nailiyyətləri ilə birləşdirərək mütərəqqi təfəkkürə malik sənətkar kimi çıxış edirdi. Bəstəkarın yaradıcılığına həmişə yüksək ideya, dolğun məzmun, obrazların dərin emosional-psixoloji ifadəsi xas olub" deyə musiqişünaslar onun yaradıcılığını dəyərləndiriblər.

### XOŞBƏXT SƏNƏTKAR

Arif Məlikov fəal vətəndaşlıq mövqeyi ilə xalqın böyük hörmətini qazanmış ictimai xadim idi. 1990-cı ilin 20 Yanvar hadisələri zamanı Azərbaycan xalqının haqq səsini dünyaya çatdıranlar arasında Arif Məlikov da var idi...

A.Məlikov həm də təcrübəli müəllim kimi böyük nüfuz sahibi idi. Onun sinfində təhsil alan onlarla istedadlı gənc bəstəkar öz müəllimindən sənətin sirlərini, kompozisiyanın əsaslarını öyrənməklə yanaşı, alimin himayəsi altında böyük həyat məktəbi keçib. Akademikin rəhbərliyi altında 80-dən çox bəstəkar və nəzəriyyəçi hazırlanıb. "Mən tələbə yetişdirirəm və onlarla fəxr edirəm" deyə böyük bəstəkar deyirdi.

A.Məlikovun yaradıcılığında onun kinofilmlərə və teatr tamaşalarına yazdığı musiqilər də mühüm yer tutur. O, "Sehrli xalat", "Ulduzlar sönmür", "Rüstəm və Söhrab", "Axırıncı aşırım" kimi filmlərə, "Natəvan", "Atabəylər" tamaşalarına, 5 seriyalı "Şahnamə" filminə musiqi yazıb. "Arif Məlikov dram tamaşalarına, filmlərə musiqi yazıb. Elə bir janr yoxdur ki, o, həmin janrda əsər yazmasın. Hər bir janrda da novator kimi çıxış edib. Arif müəllim peşəkar pedaqoq kimi çoxlu tələbələr yetişdirib. Həmin tələbələr Azərbaycan bəstəkarlıq məktəbinin layiqli nümayəndələridir. Mən xoşbəxtəm ki, onun əsərlərinin premyeralarına tamaşa etmişəm, əsərlərini dinləmişəm"- deyən musiqişünas Zemfira Qafarova Arif Məlikovu zəmanəmizin böyük bəstəkarı adlandırır: "Onun baletləri təkcə öz yaradıcılığına deyil, həm də ölkəmizin adına şöhrət gətirib".

Görkəmli bəstəkar mayın 9-da son mənzilə yola salındı. Böyük bəstəkar "Sənətçi üçün sənət sevgisi, sənət nümunələrinin əks-sədası həyatda çox vacibdir. İnsanların gördüyün işdən zövq alması böyük xoşbəxtlikdir. Mən xoşbəxt sənətkaram" deməyi haqq edirdi. Onun seçdiyi sənətə, yazdığı musiqiyə münasibəti belə idi. Görkəmli bəstəkar 86 yaşında həyatla vidalaşdı. Ancaq musiqimizi dünyada tanıdan əsərlər yadigar qoydu. Elə əsərlər ki, onun adını əfsanəyə çevirdi.

**Təranə Məhərrəmova**

**Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında hazırlanıb.**